Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 291 **QƏRAR** Bakı şəhəri, 28 avqust 2015-ci il

# Kənd inzibati ərazi dairələrinin təsərrüfatbaşına uçot sənədlərinin çap edilməsi və onların 2016-2020-ci illər üçün açılması haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, 2015-ci ildə kənd inzibati ərazi dairələrində təsərrüfatbaşına uçot sənədlərinin işlənməsi müddətinin başa çatması və 2016-2020-ci illər üçün onların yenidən çap edilməsi zərurətini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə tapşırılsın ki, təsərrüfatbaşına uçot sənədlərinin yeni nümunələrinin çap edilməsini 2016-cı il aprel ayının 1-dək başa çatdırsın və həmin sənədlərin 2016-cı ildə müvafiq bölgü əsasında rayonlara çatdırılmasını təmin etsin.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, rayon (şəhər) icra hakimiyyətləri 2016-2020-ci illər üçün yeni uçot sənədlərinin tətbiqini Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təsdiq edilmiş təsərrüfatbaşına uçotun aparılmasına dair göstərişlərə uyğun təmin etsinlər.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə tapşırılsın ki, 2016-2020-ci illər üçün kənd inzibati ərazi dairələrinin təsərrüfatbaşına uçot sənədlərinin çap edilməsi üçün 2016-cı ilin dövlət büdcəsində lazım olan maliyyə vəsaitinin ayrılmasını nəzərdə tutsun.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***